**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏLİQULU QƏMKÜSARIN PEDAQOJİ İDEYALARI

İxtisas: 5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elmi sahəsi: Pedaqogika

**İddiaçı: Gülmira Sahib qızı Hacıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2021**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Pedaqoji elmlər doktoru, professor
**Fərahim Balakişi oğlu Sadıqov**

**Rəsmi opponentlər:** Pedaqoji elmlər doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

Pedaqoji elmlər doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**

Pedaqogika üzrə fəlsəfə doktoru,
dosent **Şikar Əli oğlu Hüseynov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: Pedaqoji elmlər doktoru, professor
________ **İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının
elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru,
_________ dosent, **Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın
sədri: Pedaqoji elmlər doktoru, professor
_________ **Ləzifə Nağı qızı Qasımova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasında aparılan tədqiqatların bir qismi ölkəmizdə təhsilin, təlimin və tərbiyənin mahiyyət, məzmun, məqsəd və vəzifələrini özündə əks etdirisə də, digər bir qismi pedaqoji fikir tarixinin öyrənilməsinə həsr olunur. Hər iki istiqamət üzrə aparılan tədqiqatlarda azərbaycançılıq ideyalarının yeni nəsillərə təlqin olunması ən vacib şərtlərdəndir. Bunun üçün ölkəmizdə pedaqoji konteksdə aparılan tədqiqatlar içərisində pedaqoji fikir tarixini özündə əks etdirən mövzuların önə çəkilməsi də gərəklidir. Hansı ki, o mövzular milli-mənəvi və ümumbəşəri dəyərləri özündə əks etdirir və yetişən nəslin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Təsadüfü deyil ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu"nda *"...milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq"*[1] ümdə vəzifələr kimi qarşıya qoyulur.

Yetişən nəslin nümayəndələrinə klassik pedaqoqlara məxsus fikirlərin, görkəmli maarifçilərin pedaqoji ideyalarının çatdırılması məhz həmin vəzifələrdən hesab olunur. Bu baxımdan Ə.Qəmküsarın pedaqoji ideyalarının elmi dövriyyəyə gətirilməsi, yetişən nəslin şəxsiyyətyönümlülük səviyyəsinin inkişaf etdirilməsi işində həmin ideyalardan istifadə olunması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda həyata keçirilən təhsil islahatına dair direktiv sənədlərdə, o cümlədən "Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda yetişən nəslin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi xüsusi yer tutur. Adı çəkilən dövlət strategiyasında beş əsas istiqamətlərdən biri səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil hesab olunur. Yəni, təlim prosesində hər hansı bir müəllim öz səriştəsinə əsaslanaraq müvafiq mövzuların tədrisi zamanı öyrənənlərin

[1] "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan" qəzeti. 8 sentyabr 2009

bilik-bacarıqlarını inkişaf etdirməklə yanaşı, həm də onların bir şəxsiyyət kimi formalaşmasını təmin edə bilməlidir. Bu onu deməyə əsas verir ki, təlim-tərbiyə prosesində pedaqoji fikir tariximizi zənginləşdirən mövzular da zəruri sayılır. Belə mövzular içərisində "Əliqulu Qəmküsarın pedaqoji ideyaları" mövzusu mühüm aktuallıq kəsb edir.

Tədqiqat mövzusunun aktuallığını əsaslandıran amillərdən biri də satirik şeirlərin müasir dövrdə mühüm əhəmiyyət kəsb etməsidir. Ona görə ki, pedaqoji prosesdə satirik şeirlər yetişən gənc nəsildə düzlük, doğruçuluq, dostluq, yoldaşlıq kimi keyfiyyətlər formalaşdırır, elmə, elm adamlarına ehtiram, vətənsevərlik, yurdsevərlik, torpağı sevmək və düşmənlərdən qorumaq, halallıq, paklıq, səmimilik, ataya-anaya hörmət, mübarizlik kimi müsbət keyfiyyətləri inkişaf etdirir. Artıq çoxdan sübuta yetirilmişdir ki, Seyid Əzim Şirvaninin, Qasim bəy Zakirin, Mirzə Ələkbər Sabirin və eləcə də Əliqulu Qəmküsarın satirik şeirləri yetişən nəslin bir şəxsiyyət kimi hərtərəfli formalaşmasını təmin etməyə xidmət göstərir. Ayrı-ayrı pedaqoqlar tərəfindən Seyid Əzim Şirvaninin, Qasim bəy Zakirin, Mirzə Ələkbər Sabirin satirik şeirlərinin tərbiyəvi xüsusiyyətləri öyrənilsə də, görkəmli satirik şair Ə.Qəmküsar əsərlərinin tərbiyəvi cəhətləri tədqiq olunmamışdır. Onun "Molla Nəsrəddin" jurnalındakı fəaliyyətinə də pedaqoji konteksdən az yanaşılmışdır.

XX əsr Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri olan Ə.Qəmküsar (1880-1919) "Molla Nəsrəddin" jurnalının fəal müəlliflərindən hesab edilir. Onun satiraları jurnalın ideya istiqamətinə uyğun olaraq dövrün mənfiliklərini ifşa etmək məqsədi daşıyırdı. Ə.Qəmküsar hətta bir müddət "Molla Nəsrəddin" jurnalının redaktorluq məsuliyyətini də üzərinə götürmüşdür. Onun 1919-cü ildə Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirilməsi yaradıcılığını yarımçıq qoysa da, qısa ömründə yazdığı şeirlər və publisistik məqalələr həm ədəbiyyatımızın, həm də pedaqoji fikrimizin qiymətli nümunələri kimi dəyərləndirilməlidir. Bu gözəl ziyalının həyat və yaradıcılığına dair tədqiqatlar ilk dəfə filoloji aspektdə aparmışdır. Daha doğrusu, Ə.Qəmküsarın həyatı daha öncə Naxçıvanda yaşayıb-yaradan Lətif Hüseynzadə tərəfindən ətraflı tədqiq olunmuşdur. O da

var ki, Lətif Hüseynzadə şairin yaradıcılığını bədii materiallar olaraq təhlil etsə də, görkəmli maarifçinin pedaqoji ideyaları ətraflı tədqiq olunmamışdır. Ümumiyyətlə, əlaqəli tədqiqat əsərlərində Ə.Qəmküsarın bir mollanəsrəddinçi kimi fəaliyyətinə yaxşı qiymət verilsə də, bu fəaliyyətin pedaqoji dəyəri, maarifçilik əhəmiyyəti və təlim-tərbiyə baxımından mahiyyəti açıqlanmamışdır.

Maraqlıdır ki, hələ XX əsrin 20-ci illərində Azərbaycanın bir çox görkəmli qələm sahibləri, o cümlədən C.Məmmədquluzadə, Ə.Haqverdiyev, M.S.Ordubadi kimi qüdrətli söz ustadları Ə.Qəmküsar haqqında qiymətli müddəalar irəli sürmüşlər. Bununla belə, Ə.Qəmküsarın yaradıcılığında təlim-tərbiyəyə dair görüşlər öyrənilməmiş, böyük ziyalının Azərbaycan maarifçilik hərəkatı ilə əlaqəsi elmi fikrin diqqətindən kənarda qalmışdır. Beləliklə, "Əliqulu Qəmküsarın pedaqoji ideyaları" mövzusunun tədqiqat obyekti kimi müəyyənləşdirilməsi və bu istiqamətdə hərtərəfli tədqiqatın aparılması zəruri ehtiyacdan irəli gəlmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji fikrin inkişaf tarixidir. Tədqiqatın predmetini Əliqulu Qəmküsarın pedaqoji ideyaları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Əliqulu Qəmküsarın maarifçilik görüşlərini, təlim, tərbiyə, təhsil ilə bağlı fikirlərini, ictimai-siyasi görüşlərini kompleks şəkildə araşdırmaqdan və onların Azərbaycan pedaqoji fikir tarixindəki yerini, rolunu və əhəmiyyətini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədə müvafiq aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Ə.Qəmküsarın akademik tərcümeyi-halını yazmaq, mübariz ziyalının maarifçilik fəalliyyətini sistem halında öyrənib ümumiləş-

dirmək;

- Azərbaycanda Ə.Qəmküsarın həyatı və yaradıcılığına dair mövcud tədqiqat əsərlərini təhlil etmək və bu əsərlərin məktəb və pedaqoji fikir tarixindəki rolu və əhəmiyyətini dəyərləndirmək;
- Ə.Qəmküsarın ictimai-siyasi görüşlərini sistemə salmaq;
- Pedaqoji fikir tariximizdə Ə.Qəmküsarın təhsil haqqındakı düşüncələrinin yerini, rolunu və dəyərini müəyyənləşdirmək;
- Ə.Qəmküsarın ana dili və onun tədrisi haqqındakı fikirlərinə münasibət bildirmək;
- Cəmiyyətlərin imkişafında təhsilin rolunu yüksək qiymətləndirən Ə.Qəmküsarın satirik şeirlərində, publisistikasında müəllim-tərbiyəçi probleminin qoyuluşu və həlli yollarını öyrənmək;
- Ə.Qəmküsarın əxlaq tərbiyəsi ilə bağlı ideyalarını müasir meyarlarla qiymətləndirmək;
- Əliqulu Qəmküsarın yaradıcılığında vətərpərvərlik məsələlərinə münasibət bildirmək;
- Əliqulu Qəmküsarın estetik tərbiyə haqqında fikirlərini öyrənib ümumiləşdirmək.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasınında pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dəyişdirmək məqsədi ilə tədbiq olunan elmi müddəaların, metodların, prinsiplərin, vasitələrin məcmusu dayanır. Tədqiqatın metodlarını nəzəri-tarixi təhlil, arxiv sənədlərinin öyrənilməsi, elmi tədqiqat və ədəbi-bədii materialların öyrənilməsi təşkil edir.

**Müdafiəyə təqdim olunan müddəalar.**

- Əliqulu Qəmküsarın həyatı, yaradıcılığı və maarifçilik ideyaları Azərbaycan pedaqoji fikir tarixi üçün ən dəyərli məxəzlərdən hesab olunur.
- Ə.Qəmküsarın təlim, təhsil və tərbiyə haqqında fikirləri müasir dövr pedaqogika nəzəriyyələrinin formalaşmasında mühüm dəyərli baza ola bilər.
- Yeni nəsillərin təlim-tərbiyəsi prosesində, gənclərin şəxsiyətyönümlülük səviyyəsinin yüksəldilməsində Ə.Qəmküsarın pedaqoji irsindən faydalanmaq uğur qazanmağın yollarından biridir.
- Ə.Qəmküsarın ana dili, onun tədrisi haqqında fikirləri

metodika elmimizdə bir sıra mübahisələrin həlli üçün faydalı olmaqla mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi onunla müəyyənləşir ki, dissertasiyada görkəmli şair-publisist Əliqulu Qəmküsarın maarifçilik ideyaları, pedaqoji irsi, əsərlərindəki tərbiyə məsələləri, cəmiyyətdə ideya-siyasi tərbiyə, əxlaq tərbiyəsi, estetik tərbiyə, vətənpərvərlik tərbiyəsi kimi problemlərə baxışı ilk dəfə olaraq təhlilə cəlb edilmiş və onların pedaqoji fikir tarixi üçün yeri, rolu, mövqeyi və əhəmiyyəti müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri və praktik əhəmiyyəti ondan ibarətdir ki, Ə.Qəmküsarın maarifçilik fəaliyyəti və pedaqoji ideyaları XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanda maarifçiliyi inkişaf etdirdiyi kimi, müasir dövrdə də pedaqoji fikir tariximizin zənginləşdirilməsində və bu sahədə bir sıra mübahisələrin aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb etməkdədir. Böyük ziyalı, qüdrətli satirik-publisist Ə.Qəmküsarın pedaqoji ideyalarından ali pedaqoji təhsil müəssisələrinin bakalavr, magirstr pillələrində mühazirə və seminar məşğələlərində, eləcə də "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" kursunun tədrisində və yenidən yazılmasında istifadə olunması məqsədəuyğundur.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya Naxçıvan Dövlət Universitetinin Elmi şurasının 23 yanvar 2015-ci il tarixli iclasında (protokol № 05) təsdiq olunmuşdur.

Mövzu Azərbaycan Respublikası Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şurasında 28 iyun 2016-cı il tarixdə (protokol 02/2016) qeydiyyata alınmışdır. Təhsil müddətində informatika, ingilis dili, fəlsəfə, ixtisas fənlərindən minimum imtahanları verilmişdir. Tədqiqat işi ilə əlaqədar olaraq 14 elmi əsər (biri xaricdə olmaqla) nəşr olunmuşdur. Mövzu ilə əlaqədar Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusunda Respublika konfransında (Naxçıvan: 05 may 2015), "Təhsil kurikulumları: praktik tətbiqlər" mövzusunda keçirilmiş Respublika konfransında (Naxçıvan: 24 aprel 2018),

"Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfransında məruzələr edilmiş, fikir mübadiləsinə şərait yaradılmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** İş Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** "Giriş" 6 səhifə - 11 090 işarə, I fəsil 73 səhifə -139 238 işarə, II fəsil 55 səhifə - 100 737 işarə, "Nəticə" 3 səhifə - 4 104 işarə, istifadə edilmiş ədəbiyyat 13 səhifə - 14 608 işarə. Ümumi həcmi 152 səhifə – 271 917 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"də** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, məqsədi, vəzifələri və metodoloji əsası açıqlanmış, həmçinin istifadə olunmuş tədqiqat metodları, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, dissertasiyanın aprobasiyası haqqında yığcam məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **"Əliqulu Qəmküsarın həyatı, yaradıcılığı və maarifçilik görüşləri**" adlanır. Bu fəsil 4 paraqrafdan ibarətdir.

I fəslin **"Əliqulu Qəmküsarın həyatı və yaradıcılığı"** adlı I paraqrafında qeyd edilir ki, Azərbaycan ədəbiyyatının, jurnalistikasının, teatrının inkişafına özünəməxsus töhfələr verən, maarifçilik hərəkatımızın mübariz nümayəndəsi Əliqulu Məşədi Ələkbər Nəcəfov (Qəmküsar) 1880-ci ildə həmişə yenilikçi bir diyar kimi diqqəti cəlb edən Naxçıvan şəhərində anadan olmuşdur.

Şairin atası Məşədi Ələkbər əvvəllər papaqçılıq sahəsində çalışmış, sonralar Naxçıvan şəhərində və Culfa gömrükxanasında komisiyonçu kimi fəaliyyət göstərmiş, anası Bilqeys xanım isə "Məddah" təxəllüsü ilə şeirlər yazan Məşədi Əsədin qızı olmuşdur.

Səkkiz yaşından molla məktəbinə gedən Əliqulu ərəb və fars dillərini öyrənmiş, 1894-cü ildən Məhəmməd Tağı Sidqinin (1854-1903) "Məktəbi-tərbiyə" adlı təhsil ocağında təhsil almışdır. İki ilə yaxın bu məktəbdə oxuyan Ə.Qəmküsar, prinsip etibarilə, ziyalı

mühitində böyümüş, Azərbaycan maarifçilik hərəkatının övladı kimi formalaşmışdır.

Ə.Qəmküsar həyatının "Məktəbi-tərbiyə" dövrü İ.Ağayevin "Əliqulu Qəmküsar" kitabında bu cür dəyərləndirilmişdir: *"Müasir ruhlu "Məktəbi-tərbiyə"də aldığı biliklər gənc Əliqulunun dünyagörüşünə ciddi təsir edir, onun gözlərini açır, beləliklə, mövcud həyata münasibətində bir müəyyənlik yaradırdı. Əliqulu burada öz müəllimi Məhəmməd Tağı Sidqidən bədii yaradıcılığın sirlərini də öyrənməyə başlayır. Klassik ədəbiyyatla və ictimai elmlərlə tanışlıq gənc Əliqulunu xalqın gələcək taleyini düşünməyə vadar edir. Qədim tarixi olan Naxçıvan Ə.Qəmküsarın poetik istedadının beşiyi olur."* [2]

1896-cı ildə Qəmküsarın atası xəstəlik səbəbindən müalicə üçün Təbrizə getmiş, oğlunu da özü ilə bərabər aparmışdır. Təbriz həyatı 16 yaşlı Əliqulu Nəcəfovun dünyagörtüşünə ciddi təsir göstərmiş, gənc şair qəti şəkildə bu qənaətə gəlmişdir ki, ağıl kultu qələbə çalmadan cəmiyyətlərin müsbət istiqamətdə dəyişməsi qeyri-mümkündür. Dörd aydan sonra Məşədi Ələkbər dünyasını dəyişmiş, oğlu isə Naxçıvana qayıtmlışdır.

Ə.Qəmküsar həyatının bu dövrü ən yığcam formada İ.Həbibbəylinin "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" kitabında belə qələmə alınmışdır: *"1897-1903-cü illər – Naxçıvanda yaşamış, Culfada komissiyon idarəsində çalışmış, ticarət, sənət və ədəbiyyatla məşğul olmuşdur.*

*1904-1905-ci illər – İrəvanda yaşamış, "Şərqi-rus" qəzetinin xüsusi müxbiri kimi fəaliyyət göstərmiş, "Öz müxbirimizdən", "Culfadan", "İrəvandan" sərlövhəli publisist yazılarını dərc etdirmişdir."*[3]

Ə.Qəmçküsar 1905-1912-ci illərdə dayısı Nəsrullah Şeyxovla birgə Culfa kömrükxanasında çalışmış, İranda baş verən Təbriz inqilabı ilə əlaqə saxlamış, inqilabçıları həm mənəvi, həm də maddi cəhətdən ruhlandırmışdır. O, Cənubi Azərbaycanda azadlıq

---

[2] Ağayev, İ.M. Əliqulu Qəmküsar / İ.Ağayev. – Bakı: Elm, – 1976. – s. 14

[3] Həbibbəyli, İ.Ə. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları / İ.Həbibbəyli. – Bakı: Nurlan, – 2004. – s. 65

hərəkatının liderlərindən Səid Səlmasi ilə yaxın dost olmuşdur.

1912-13-cü illər və ondan sonrakı dövrlərdə Əliqulu Qəmküsar Tiflisdə yaşamış, "Molla Nəsrəddin" jurnalının ikinci redaktoru və məşhur mühərriri sifəti ilə də çıxış etmişdir. Bu illərdə o, jurnalın bütün ağırlıqlarını Cəlil Məmmədquluzadə ilə birlikdə daşımış, Mirzə Cəlilin yaxın əməl dostu olmuş, təqib və təhqirlərə, təkzib və təkfirlərə onunla birlikdə məruz qalmışdır. Əliqulu Qəmküsar "Molla Nəsrəddin" jurnalında xalqı aldadan, milləti mənəvi cəhətdən şikəst etməyə çalışan savadsız mollaları, saxta seyidləri, hacıları, məşədiləri, kərbəlayıları kəskin şəkildə tənqid etmiş, bu yolla da sanki XVIII əsr Avropa maarifçilərinin həyata keçirdikləri missiyaları öz vətənində gerçəkləşdirmişdir.

Ə.Qəmküsar bədii yaradıcılığa XIX əsrin sonlarından başlamış, satirik şeirlərində maarifçilik ideyaları ilə çıxış etmiş, xalqı cəhalət yuxusundan oyatmağa çalışmışdır. Bununla belə, onun əsl ciddi yaradıcılığı "Molla Nəsrəddin" jurnalının nəşrindən sonra başlamışdır. Jurnalla əməkdaşlıq edən Qəmküsar məcmuənin döyüşkən mühərrirlərindən biri, böyük Sabirin davamçısı kimi tanınmışdır

"Molla Nəsrəddin" jurnalında "Cüvəllağı", "Cüvəllağı bəy", "O taylı", "Xadimi- millət", "Simurğ" və s. imzalarla çap etdirdiyi satiralarında o, əsarət dünyasına nifrət yağdırmışdır.

Bütün yaradıcılığı boyu yalançı ruhanilərin iç üzünü açan Qəmküsar 1917-ci ildə, çar mütləqiyyətinin yenicə devrildiyi günlərdə "Molla Nəsrəddin" jurnalının 23 mart 1917-ci il tarixli 7-ci sayında çap olunmuş "İstibdadi-ruhani" adlı felyetonunda yazırdı ki, mütləqiyyəti yıxmaqla vəzifə bitmir, xalqın ondan az dəhşətli olmayan düşmənləri – ruhanilər durduqca zülm yaşayacaqdır. O, zəhmətkeş xalqa müraciətlə deyirdi: *"Yaxşısı budur ki, indi vaxt ikən başının çarəsini elə və necə ki, istibdadi-cismanini yıxdın, istibdadi-ruhanini də yıx ki, yaxan qurtarsın. Yoxsa istibdad istibdaddır, o olmasın, bu olsun."*[4]

Cənubi Azərbaycan həyatı, Səttarxan hərəkatı Qəmküsar

---

[4] Molla Nəsrəddin / Redaktorlar: B.Nəbiyev, T.Kərimli. – Bakı: Çinar-Çap, – 2009. – c 5: – s. 57

yaradıcılığında ən çox diqqəti çəkən mövzulardan biridir. O, mətbuatdakı çıxışları ilə Təbriz inqilabçılarını müdafiə edir, onların düşmənlərini kəskin satiraya tutur, hər cür azadlığa qənim kəsilmiş Şərq müstəbidlərinə acı-acı gülürdü.

Böyük mütəfəkkir, görkəmli maarifçi-pedaqoq, teatr xadimi, jurnalist, publisist olan Əliqulu Qəmküsar həm də ictimai-siyasi xadim kimi təqdir olunmalıdır. Əsərləri deməyə əsas verir ki, Əliqulu Qəmküsarın çox zəngin ictimai-siyasi görüşləri vardır. Doğma vətənini və vətən qardaşlarını canından artıq istəyən Əliqulu Qəmküsar çalışdığı bütün sahələrdə xalqın maariflənməsinə öz töhfəsini vermişdir.

Əliqulu Qəmküsarın xalqının ictimai-mədəni tərəqqisi uğrunda apardığı mübarizəsi, imkanlılara, yalançı din nümayəndələrinə qarşı yazdığı kəskin satirik şeirlər, felyetonlar onunla nəticələnmişdir ki, mollalar şairi dinsiz adlandırmış, çar jandarmaları şübhəli adam kimi daim onu təqib etmişlər.

Ümumiyyətlə, Əliqulu Qəmküsarın siyasi-publisistik yazıları öz təsir dairəsinə görə geniş və kəskin olmuşdur. Hətta 1912-1913-cü illərdə, yəni "Molla Nəsrəddin" jurnalında Ə.Qəmküsarın ikinci redaktor kimi çalışdığı dövrdə jurnalının fəaliyyətinə siyasi rəy verilmiş və bir neçə dəfə onun nəşri dayandırılmış, nüsxələri müsadirə olunmuşdur.

Ömrü xalqının tərəqqisi uğrunda mübarizədə keçən Ə.Qəmküsar 14 mart 1919-cu il tarixdə Tiflisdə qətlə yetirilmişdir. Bir çox ziyalılar, o cümlədən Əziz Şərif, Ə.Qarayev, Ə.Səbri, M.Ə.Əliyev çap etdirdikləri nekroloqlarda Ə.Qəmküsarın ölümünün böyük itki olduğunu vurğulamışlar. Hətta Ə.Haqverdiyev "Beş il" adlı xatirə-məqaləsində yazmışdır: *"Əliqulu Nəcəfzadəyə dəyən güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi. Ona mən "Molla Nəsrəddin" məcmuəsinin ürəyi adı qoymaqda səhv etmirəm və cürətlə də bu sözü deyirəm. Heyf olsun bivəxt əlimizdən gedən rəfiqimizə ki, həmişə qədrşünas dostlarının ürəyində diridir. Bununla onun nəcib ruhunu təmin edirik."*[5]

---

[5] Haqverdiyev, Ə.Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Haqverdiyev. – Bakı: Lider, –c. 2. –2005. – s. 331

**“1.2. Əliqulu Qəmküsarın həyat və yaradıcılığı haqqında aparılan tədqiqatlar və onların pedaqoji fikir tarixində yeri, rolu və əhəmiyyəti”** paraqrafında göstərilir ki, Azərbaycanda Ə.Qəmküsarla bağlı dəyərləndirmələr əsasən ədəbiyyatşünaslıq əsərlərində yer tutsa da, həmin mənbələrdə irəli sürülən bir sıra müddəalar pedaqoji fikir tariximiz üçün də qiymətlidir

Ölkəmizdə Ə.Qəmküsarın ömür və sənət yoluna həsr olunmuş ilk tədqiqat əsərinin – dissertasiyanın (1949) müəllifi ədəbiyyatşünas Lətif Hüseynzadədir. Əlbəttə, L.Hüseynzadəni bir mollanəsrəddinçi olaraq Ə.Qəmküsarın tərcümeyi-halı və bədii-publisistik irsi düşündürmüşdür. Eyni zamanda “Əliqulu Qəmküsarın həyatı və yaradıcılığı” adlı dissertasiya pedaqogika sahəsinin mütəxəssislərini məşğul edəcək fikirlərlə də zəngindir. Prinsip etibarilə Ə.Qəmküsarın satiralarından söz açıb Azərbaycanda XIX əsrin sonu və XX əsrin əvvəllərində elmsizlik, savadsızlıq, mövhumat, xurafat, dini-ictimai zülm əleyhinə mübarizədən bəhs etməmək qeyri-mümkündür. Bu deyilənlərin hər biri isə Azərbaycan maarifçilərinin həyat amalı olmuşdur.

İ.Ağayev “Əliqulu Qəmküsar” kitabında (Bakı: Elm, 1976) Ə.Nəcəfovun Azərbaycan ictimai fikir tarixində yer tutduğunu bildirmiş, şair publisistin həyatından bəhs edərkən tamamilə haqlı olaraq maarifçilik hərəkatına xidmət göstərmiş bir ziyalının ömür yolunu canlandırmışdır. Hər halda pedaqoji fikir tariximiz üçün dəyərlidir ki, İ.Ağayevin fikrincə, maddi imkanlarının necəliyinə baxmayaraq, Ə.Qəmküsar xalqa xidmət yolunu seçmiş, həmvətənlərinin tərəqqisi naminə mübarizədə hər cür məhrumiyyətləri gözə almışdır: *“Həqiqətən, Ə.Qəmküsar özünü hələ ilk ədəbi-ictimai fəaliyyəti dövründən xalqının milli oyanışına can atan mübariz bir əsgər kimi göstərirdi.”* [6]

Doğrudur ki, İ.Ağayev mollanəsrəddinçi Ə.Qəmküsarın əsasən inqilabçı-demokrat olması qənaətinə gəlmişdir. Lakin “Əliqulu Qəmküsar” kitabında təqdim edilən bir çox faktlar sübut edir ki, Ə.Nəcəfov bütün varlığı ilə Azərbaycan maarifçilik hərəkatına bağlı olmuş, xalqın savadlanmasına, cəmiyyət hadisələrindən baş çıxarmasına xüsusi önəm vermiş, bu işdə teatrın və mətbuatın

---

[6] Ağayev, İ.M. Əliqulu Qəmküsar / İ.Ağayev. – Bakı: Elm, – 1976. – s. 16

imkanlarından gərəyincə faydalanmağı zəruri saymışdır. Budur, "Əliqulu Qəmküsar" kitabına görə, fədakar ziyalı 1910-cu ildə Məmmədəli Sidqiyə yazdığı bir məktubda öz məqsədini belə açıqlamışdır: *"Yazmalı çox sözlərim vardırsa da, icmala iktifa edib, fəqət izhari-həyat eyləyirəm. Bədürüsti ki, bu günlərdə müsəmməm olmuşuq ki, bir teatr truppası təşkil edib, bəzi dramları ki, islam aləminin indiki halına mütabiq ola, oynayaq..."*[7]

Mir Cəlal Paşayevin "Azərbaycanda ədəbi məktəblər (1905-1917)" kitabında (Bakı: Ziya-Nurlan, 2004) Ə.Qəmküsarın "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndəsi olaraq təqdim edildiyini görürük. Bununla belə, görkəmli ədəbiyyatşünas Mir Cəlal mollanəsrəddinçi şair-publisist Ə.Qəmküsardan məhz XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan maarifçilik hərəkatı ənənələrini davam və inkişaf etdirən bir qələm sahibi kimi söz açmış, onun mühafizəkar qüvvələrə qarşı mübarizəsindən bir qədər geniş bəhs etmişdir.

Akademik İsa Həbibbəyli bir sıra əsərlərində Ə.Qəmküsarın bədii-publisistik yaradıcılığını dəyərləndirmiş, bu amal mücadiləsi qəhrəmanının savadsızlığa, elmsizliyə qarşı mübarizəsindən məxsusi söz açmışdır. Məlumdur ki, teatr və mətbuat Azərbaycan maarifçiliyinin əsas atributlarından olmuşdur. İ.Həbibbəylinin "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" kitabında da Ə.Qəmküsarın teatr və mətbuat sahəsindəki fəaliyyəti daha çox nəzər nöqtəsinə çəkilmişdir.

Doğrudur, "Əliqulu Qəmküsarın ədəbi taleyi: sənətdə və həyatda" əsərinin əvvəlində akademik İ.Həbibbəyli qəti şəkildə təsdiqləmişdir ki, Ə.Qəmküsar Azərbaycan tənqidi-realist ədəbiyyatının nümayəndəsidir. Bununla belə, görkəmli alim Ə.Qəmküsarın maarifçi mühitdə böyüdüyünü və çalışdığını məxsusi vurğulayaraq yazmışdır: *"XIX əsrin səksəninci illərindən "Molla Nəsrəddin"in nəşrinədək olan mərhələdə Naxçıvanda Avropa və Rusiyada təhsil alıb gəlmiş böyük bir maarifçi cəbhə cəmləşmişdi. Həmin maarifçi nəsil köhnəlmiş həyat tərzinə qarşı birgə mübarizə aparır, regionda məktəbi və teatrı inkişaf etdirir, mətbuatla əlaqə*

---

[7] Ağayev, İ.M. Əliqulu Qəmküsar / İ.Ağayev. – Bakı: Elm, – 1976. – s. 21

*yaradırdılar. Əliqulu Qəmküsarın mənsub olduğu ailə də bu böyük maarifçi hərəkata yaxın idi.”*[8] Bu fikirlər Azərbaycan pedaqogika tarixi üçün son dərəcə qiymətlidir.

Müstəqillik illərində elmi fikir tərəfindən Ə.Qəmküsarın həyat və yaradıcılığına diqqətin nəzərəçarpacaq dərəcədə artdığını görürük. 2021-ci il tarixdə “Elm və təhsil” nəşriyyatı tərəfindən elmi ictimaiyyətə təqdim olunan “Əliqulu Qəmküsar taleyi və sənəti” kitabı böyük yazıçıya həsr olunmuş məqalələrdən ibarətdir. Doğrudur ki, həmin məqalələr də əsasən filoloji aspektdən yazılmışdır. Bununla belə, Ə.Qəmküsarın ömür və sənət yolundan bəhs edən müəlliflər bu və ya digər dərəcədə şair-publisitin pedaqoji görüşlərindən də söz açmışlar. Məsələn, İ.Cəfərovun “Ə.Qəmküsar yaradıcılığında Şərq-türk ədəbiyyatına münasibətin tənqidi-realist prinsipləri” məqaləsindən oxuyuruq: *“Bədiyyatın klassik nümunələrinə kamil şəkildə vaqif olan Ə.Qəmküsar “Molla Nəsrəddin” jurnalının 14 avqust 1913-cü il tarixli 21-ci sayında “Ədəbiyyat” sərlövhəsi ilə oxuculara təqdim edilmiş məsnəvisində Musa mövzusunu tamamilə yeni istiqamətə yönəltmişdir. Müəllifin təqdimatına görə, xalq ədəbiyyatından alınmış hekayədə göstərilir ki, Musa peyğəmbərin xahişi ilə Tanrı ona palçıqdan bir insan yaratmağa icazə vermiş, lakin bu yeni insanı beyinlə təchiz etmək peyğəmbərin yadından çıxmışdır. Satira səhvən yaradılmış bu yeni insanın gələcək taleyinin təqdimatı ilə tamamlanır.”*[9]

Prinsip etibarilə haqqında danışılan satirada Ə.Qəmküsarın tənqid hədəfi zəkadan məhrum cəmiyyətdir. Başqa sözlə, Ə.Qəmküsarın satiralarında ağılın qalib gələcəyi bir cəmiyyət axtarışı pedaqoji fikir tariximiz üçün olduqca mühüm məqamdır.

I fəslin III paraqrafı **“Dini fanatizm və zərərli adətlər əleyhinə mübarizəsi Əliqulu Qəmküsarın maarifçiliyinin əsas göstəricisi kimi”** adlanır**.** Bu paraqrafda qeyd olunur ki, hələ XVIII əsrdən cəmiyyətin tənəzzülə sürüklənməsi Avropa maarifçilərini

---

[8] Həbibbəyli, İ.Ə. Ədəbi şəxsiyyət və zaman. Əsərləri: [10 cilddə] / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – c. 2. – 2017. – s. 306

[9] Əliqulu Qəmküsar taleyi və sənəti / tərt. ed. İ.Həbibbəyli – Bakı: Elm və təhsil, – 2011. – s. 34-35

ciddi şəkildə düşündürmüş, onlar bu qənaətə gəlmişlər ki, insanların tərəqqisi naminə ilk növbədə dini fanatizm aradan qaldırılmalıdır.

Azərbaycan milli təfəkküründə görkəmli satirik şair, mollanəsrəddinçi kimi yer tutan Əliqulu Qəmküsar ömrünün sonuna qədər həm səhnədə, həm bədii-publisistik yaradıcılıqda, həm də həyatda yalançı ruhanilərə qarşı mübarizə aparmışdır. Döyüşkən şair insan həyatının mənasını öz xalqının maariflənməsi uğrunda mübarizədə görmüşdür. Ə.Qəmküsar inanırdı ki, yazdığı satirik şeirlər avam xalqın maariflənməsində, onların elmə, təhsilə yaxınlaşmasında mühüm rol oynayacaqdır. Şair aydın şəkildə yalançı din nümayəndələrinin əməllərini qələmə alır, göstərirdi ki, məhz onların zərərli fəaliyyətləri nəticəsində islam gündən-günə tənəzzülə uğramaqda, islam ölkələri dini liderlərin laqeydliyi səbəbindən Qərb dövlətlərinin əli ilə məhv edilməkdədir. İslama qənim kəsilmiş "dindarların" tipik surətlərinə Ə.Qəmküsar yaradıcılığında dönə-dönə rast gəlmək mümkündür:

*Dindar olanın halı pərişan gərək olsun,*
*Əfsürdə-dili, bisərusaman gərək olsun.*

*Hər qovmə ləkəd-küb ola gər millətі-islam,*
*Hər adəti-məzmum ilə kəndin qıla bədnam;*
*Sıxma ürəyin, eyləmə qəm, olmagilən xam,*
*Bu tayifə rizvanə şitaban gərək olsun.*[10]

Ə.Qəmküsar maarifçiliyinin ən yaxşı cəhətlərindən biri insanları, avam kütləni, zərərli dini adət-ənənələrindən uzaqlaşdırmaq olmuşdur. Həmin zərərli adət-ənənələri daim pisləyən şair məhərrəmlik günlərində insanların baş yararaq öz bədənlərinə xəsarət yetirmələrinə qarşı çıxmış, "Yar!" rədifli satirasında birbaşa fanatizmin dayaqlarına zərbə endirərək yazmışdır:

*Çək xəncərini, baş-qulağın qan eləyib yar,*
*Vəhşiyyətini aləmə elan eləyib yar,*
*Kirdarına hər milləti xəndan eləyib yar,*
*Yar, yarmağına canını qurban eləyib yar,*

---

[10] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri / Ə.Qəmküsar. – Bakı: Şərq-Qərb, – 2006. – s. 26

*Yar əhrəmənim, yar qoçağım, yar igidim, yar!*[11]

Ə.Qəmküsar göstərirdi ki, ildən-ilə məhərrəmlik mərasimlərinin daha təmtaraqlı keçirilməsinə çalışan din nümayəndələrinin məqsədi əslində heç də islamı yüksəltmək deyil, həmin mərasimlərdə qazanc əldə etməkdir.

Böyük maarifçi Ə.Qəmküsarın yaradıcılığında ifrat dini fanatizmin, zərərli mövhümatçılığın mahiyyətinin aydınlaşdırılması geniş yer tutur. Xalqın maariflənməsinə, tərəqqisinə həsr edilən bu şeirlərin, demək olar ki, hamısı insanları aldadaraq dini fanatizmə yuvarlandıran qüvvələrin tənqidi məqsədilə qələmə alınmışdır. Həmin şeirləri nəzərdən keçirdikdə onların pedaqoji fikir tariximiz üçün nə qədər dəyərli olduğunu görürük.

Əliqulu Qəmküsar bütün satirik şeirlərində maarifçilik mövqeyindən çıxış etmişdir. Həmin şeirlərdə dünyəvi təhsilin ziddinə gedənlərin, yeni tipli məktəblərin açılmasına mane olanların, qızların təhsil almasını günah sayanların, pirləri, ocaqları şəfa yerləri kimi təqdim edən vaizlərin tənqid atəşinə tutulduğunu görürük.

Bəli, Ə.Qəmküsarın yaradıcılığı deməyə əsas verir ki, Azərbaycanda mütərəqqi pedaqoji ideyaların inkişafında mollanəsrəddinçi şairin satirik şeirləri və felyetonları mühüm rol oynamışdır.

I fəslin **"1.4. Müasirlərinin Əliqulu Qəmküsar haqqında dedikləri və pedaqoji fikir tarixi üçün bunların əhəmiyyəti"** paraqrafında qeyd olunur ki, dünya elm təcrübəsində müasirlərinin görkəmli şəxsiyyətlər haqqında dediklərinin müasir tərbiyə prosesində nəzərə alınması ənənəvi yanaşmadır. Bu baxımdan C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Əli Nəzmi, Mirzəağa Əliyev, Seyid Şuşinski, Əliheydər Qarayev, M.S.Ordubadi, Rzaqulu Nəcəfov, Qəmər Salamzadə kimi ziyalı qələm sahiblərinin Ə.Qəmküsarla əlaqədar xatirələri pedaqoji fikir tariximizi zənginləşdirən qiymətli materiallar olmaqla mühüm əhəmiyyət daşımaqdadır.

"Molla Nəsrəddin" jurnalında təlim-tərbiyə məsələlərinin geniş yer tutması məlum faktdır. Çünki mollanəsrəddinçiləri düşündürən əsas məsələ cəmiyyətlərin inkişafı olmuşdur. Bu

[11] Yenə orada, – s. 31

səbəbdən C.Məmmədquluzadə və məcmuənin digər əməkdaşları öz əsərlərində məktəb, müəllim, dərslik kimi mövzulardan dönə-dönə söz açmışlar. "Molla Nəsrəddin" cəbhəsində mücahid qələm döyüşçülərinin xidmətlərini Mirzə Cəlil öz dostu Ə.Qəmküsarın xatirəsinə həsr etdiyi və "Kommunist" qəzetinin 14 mart 1924-cü il taixli 60-cı sayında getmiş "Əliqulu Nəcəfov" adlı miniatür məqaləsində belə dəyərləndirmişdir: *"Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil. "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam.*

*Bu əziz yoldaşlarımızın biri də mərhum Əliqulu Nəcəfov-dur."*[12]

Böyük Mirzə Cəlilin bu fikirləri Azərbaycan maarifpərvər ziyalılarının birliyini ifadə etmək baxımından son dərəcədə əhəmiyyətlidir.

C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının 30 may 1929-cu il tarixli 22-ci sayında çap etdirdiyi "Əliqulu Qəmküsar" məqaləsində öz qələm dostunu xatırlayaqkən iki məqamı ayrıca vurğulamışdır. Bunlardan biri Ə.Qəmküsarın dini fanatizmə qarşı mübarizəsi, digəri şair-publisistin ictimai zülmü lənətləməsidir. Göründüyü kimi, həm dini fanatizmə qarşı çıxmaqla, həm də ictimai zülmü lənətləməklə Ə.Qəmküsar Azərbaycan maarifçiləri ilə eyni cərgədə dayandığını bir daha təsdiqləmişdir ki, bu faktlar da pedaqoji fikir tariximiz üçün dəyərlidir.

Qeyd-şərtsiz, memuar ədəbiyyatımızda pedaqoji fikir tariximiz üçün əhəmiyyət kəsb edən qiymətli müddəalar yer tutmaqdadır. Belə ədəbiyyat nümunələrindən biri də Ə.Haqverdiyevin "Beş il" məqaləsidir. Həmin məqalədən oxuyuruq: *"Ömründə Əliqulu səhnə görməmiş, ilk dəfə səhnəyə çıxıb tamaşaçıları heyrətə gətirdi. Bakı teatr sevənlərindən onu hər kəs "Ölülər" komediyasında Şeyx Nəsrullah rolunda görüb, indi də xəyalından çıxarmayıb. Gözəl natiq, şirinzəban, dərin fikirli, geniş məlumat sahibi və insanı təəccübə gətirən hafizəli bir vücud idi ki, uşaqlığından axır gününədək hər nə*

---

[12] Məmmədquluzadə, C.M. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. Bakı: Öndər, –c. 4. –2004. – s. 244

*əşar oxumuş idisə, hamısı hafizəsində idi.”* [13]

Düşünürük ki, yeni nəsillərdə Azərbaycan maarifçilərinin şəxsi keyfiyyətləri haqqında təsəvvür tamlığı yaratmaq baxımından Ə.Haqverdiyevə məxsus bu təqdimatın dəyərini sübut etməyə ehtiyac yoxdur.

Pedaqoji fikir tariximizi yeni faktlarla zənginləşdirən mənbələr sırasında Əli Nəzminin “Təhəssürat” şeirindən, Əziz Şərifin “Nekroloq”, Əli Səbrinin “Nekroloq əvəzi”, Hüseyn Minasasovun “Əliqulu Nəcəfov” yazılarından, Ə.Qarayevin, M.S.Ordubadinin, Qəmər Salamzadənin xatirələrindən məxsusi söz açılmalıdır. Ə.Qəmküsarın müasirlərinin görkəmli mollanəsrəddinçi şair-publisist haqqında yazdıqları çağdaş dövrümüzdə məktəblilərin vətənpərvərlik tərbiyəsində nə qədər mühüm əhəmiyyət kəsb edirsə, pedaqoji fikir tariximizi zənginləşdirmək baxımından da bir o qədər əhəmiyyət daşıyır.

Dissertasiyanın **“Əliqulu Qəmküsarın yaradıcılığında tərbiyəvi fikirlər və bunların pedaqoji fikir tarixi üçün əhəmiyyəti”** adlı II fəsli 4 paraqrafdan ibarətdir.

**“2.1. Əliqulu Qəmküsarın mənzum hekayələri, dəyənəkləri onların pedaqoji fikir tarixində yeri və tərbiyəvi əhəmiyyəti”** paraqrafında ədibin hekayələri və dəyənəkləri təhlilə cəlb edilmiş və onların pedaqoji fikir tarixi üçün dəyəri şərh olunmuşdur.

Əliqulu Qəmküsar yaradıcılığında janr baxımından mənzum hekayələr və dəyənəklər xüsusi yer tutur. Şairin mənzum hekayələrində ciddi pedaqoji fikirlərin irəli sürüldüyünü görürük. Həmin hekayələrin hamısı demək olar ki pedaqoji ideyalarla zəngindir.

Ə.Qəmküsarın Azərbaycan məktəb və pedaqoji fikir tarixini zənginləşdirən “Üç dostluq” mənzum hekayəsi bir neçə cəhətdən mühüm əhəmiyyət kəsb edir. Birincisi, bu hekayəni oxuyan yeni nəslin nümayəndələri ötən əsrin ilk illərindəki ictimai-siyasi hadisələrlə tanış olurlar. İkincisi, mənzum hekayədə qələmə alınmış molla və onun dostlarının yalanları çağdaş gənclik tərəfindən qinaq

---

[13] Haqverdiyev, Ə.Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Haqverdiyev. – Bakı: Lider, –c. 2. –2005. – s. 331-332

obyektinə çevrilir. Üçüncüsü, “Molla Nəsrəddin” jurnalında çap olunmuş mənzum hekayə məktəblilərə elmi dünyagörüş təqdim etməkdədir. (“Molla Nəsrəddin” jurnalı, 2 mart 1917, № 4 - 9 mart 1917, № 5)

Əliqulu Qəmküsarın yaradıcılığında dəyənəklər geniş yer tutur. Azərbaycan pedaqoji fikir tarixini zənginləşdirən həmin dəyənəklər tərbiyəvi təsir gücünə malik olan sənət nümunələridir.

Ə.Qəmküsar öz dəyənəklərində Şərq mütləqiyyətini lənətləmiş, yalançı din nümayəndələrinin əsl simasını açmış, açıq şəkildə elan etmişdir ki, Azərbaycan xalqının xilası onun birliyində, vətənpərvərliyində, millətsevərliyindədir. Şair yazmışdır ki, bu işdə ziyalılar xüsusi fədakarlıq göstərməli, onların səyi nəticəsində məmləkət sevgisi vətəndaşın mənəvi keyfiyyətinə çevrilməlidir. Ə.Qəmküsarın dəyənəklərində uşaqların tərbiyəsi, onların təbiətini korlaya biləcək adamlara qarşı mübarizə, yeni nəsilləri elm öyrnməyə çağırış geniş yer tutur. Bu kimi məsələlərdən bəhs edən Ə.Qəmküsar yazırdı:

*Özgələr dərs oxuyur, alimi-fərzanə olur,*
*Özünə, millətinə qövlü həkimanə olur.*
*Student olsa biri leyk bizim millətdə,*
*Ya qumarbaz, ya piyan, ya da ki, divanə olur.*[14]

Eləcə də ictimai mühitdə, cəmiyyətdə özünü apara bilməyən, tərbiyəsində qüsurları olan insanları tənqid hədəfinə çevirən Ə.Qəmküsar onları öz dəyənəyi ilə “döyərək” tərbiyələndirməyə çalışmışdır.

Qəti şəkildə deyə bilərik ki, Əliqulu Qəmküsarın mənzum hekayələri və dəynəkləri Azərbaycan ədəbiyyatının nadir incilərindən olmaqla bərabər, mühüm təlim- tərbiyəvi əhəmiyyətə malik sənət örnəkləridir.

**“2.2. Əliqulu Qəmküsarın yaradıcılığında əxlaq tərbiyəsi məsələləri və pedaqoji fikir tarixi üçün onların əhəmiyyəti”** paraqrafında qeyd olunur ki, ictimai şüur forması kimi əxlaq insanların davranış fəaliyyətinin meyarı hesab edilir. Vaxtilə Nəsirəddin Tusi “Əxlaqi-Nasiri” əsərində əxlaqın müsbət təzahürlərini

[14] Molla Nəsrəddin / Redaktorlar: B.Nəbiyev, T.Kərimli. – Bakı: Çinar-Çap, – 2008. – c 4: – s. 481

“fəzilətlər”, mənfi təzahürlərini isə “rəzilətlər” adlandırmışdır.

Ə.Qəmküsarın yaradıcılığında da əxlaqın həm müsbət, həm də mənfi təzahürlərindən söz açıldığını görürük. Başqa sözlə, şair-publisistin yaradıcılığında əxlaqdan bütöv bir sistem halında bəhs edildiyini görürük. Ə.Qəmküsar cəmiyyətdə yaxşı adamları pis adamlardan, yaxşı əməlləri pis əməllərdən, ədaləti ədalətsizlikdən qorumağa cəhd göstərmiş və öz əsərlərində bütün bunları ifadə etməyə çalışmışdır.

Ə.Qəmküsarın yaradıcılığında əxlaq tərbiyəsinin məzmunu əxlaqi keyfiyyətlərin təqdir olunmasından, qeyri-əxlaqi normaların, onların zərərli nəticələrinin tənqid olunmasından ibarətdir.

Cəmiyyətdə əxlaqın saflaşmasına mane olan cahillərin Azərbaycan xalqının milli koloritinə uyğun olmayan əxlaq normaları nümayiş etdirmələrini satira atəşində yandıran Ə.Qəmküsar yazmışdır:

*Millətinin halı pərişan ola,*
*Hər bir işi nifrətə şayan ola,*
*Cahil ola, vəhşi və nadan ola,*
*Qəm yemə, səbr et, bu da, yahu, keçər.*[15]

Ə.Qəmküsarın yaradıcılığı deməyə əsas verir ki, əsərlərində namussuzluğu ar bilməyənlərin, zahirdə özünü pak adam kimi göstərən, batində naqis hərəkətlər edənlərin tipik surətlərini yaradan şair müasirlərini, eləcə də bütün insanlığı əxlaqi kamilliyə çağırmışdır. Bu fikirlərin təsdiqi üçün “Yahu, keçər”, “Ələ düşməz” şeirlərini oxumaq kifayətdir.

Əliqulu Qəmküsarın yetişən nəslin əxlaq tərbiyəsi ilə bağlı irəli sürdüyü ideyalar, söylədiyi fikirlər pedaqoji cəhətdən ona görə dəyərlidir ki, həmin ideya və fikirlər çağdaş zamanımızda da insanların mənəvi dünyasına ciddi təsir göstərmək gücündədir.

Əliqulu Qəmküsarın qələmə aldığı əsərlərdə əxlaq tərbiyəsinin bütün komponentləri, o cümlədən vətənsevərlik, yurdsevərlik, elmə rəğbət, dostluq, yoldaşlıq, düzlük, doğruçuluq, saflıq, mənəvi paklıq, qəhrəmanlıq, mərdlik, təmkinlilik, mübarizə əzmi və s. öz əksini

---

[15] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri / Ə.Qəmküsar. – Bakı: Şərq-Qərb, – 2006. – s. 22

tapır.

**"2.3. Əliqulu Qəmküsarın yaradıcılığında ideya-siyasi tərbiyə məsələləri və pedaqoji fikir tarixi üçün onların əhəmiyyəti"** paraqrafında qeyd olunur ki, Ə.Qəmküsarın yaradıcılığında ideyalılıq yüksək səviyyədə olduğu kimi, siyasi yanaşmalar da yüksək səviyyədədir. Ümumiyyətlə, tərbiyənin tərkib hissələrindən biri də ideya-siyasi tərbiyədir. İnsanların ideyası, təbii olaraq, onların həyat tərzinə, maddi-rifahına, cəmiyyətdəki mövqeyinə uyğun olaraq daim dəyişir, püxtələşir və insan özü şəxsiyyət kimi kamilləşir. Hər dövrün özünəməxsus ideya-siyasi informasiyalar sistemi olduğu üçün yeni nəsillərin həmin informasiyalar sistemi ilə tanış edilməsi çağdaş insanın ideya-siyasi tərbiyəsində mühüm rol oynayır. Professor N.Kazımov ideya-siyasi tərbiyənin mahiyyətinə belə aydınlıq gətirmişdir: *"Azərbaycan üçün mütərəqqi ideyalar olduqca əhəmiyyətlidir. Belə ideyalardan biri milli mənlik şüurudur. Milli mənlik şüuru tələb edir ki, özünü azərbaycanlı adlandıran şəxs Azərbaycan xalqının sevincinə sevinsin, kədərinə şərik olsun, xalqı ilə qaynayıb qarışsın. "Mən azərbaycanlıyam" demək azdır. Azərbaycana məxsus olduğunu işdə, davranışda isbat etmək lazım gəlir. İdeya-siyasi tərbiyənin əlamətlərindən, vəzifələrindən biri məhz milli mənlik şüurunun gənc nəsildə formalaşdırılmasına xidmət etməkdən ibarıtdir."*[16]

Ə.Qəmküsar əsərlərinin böyük əksəriyyəti yüksək ideyalar daşıyan sənət nümunələridir. Həmin nümunələrdə Ə.Qəmküsar həm yazıçı, mədəniyyət xadimi, həm də jurnalist kimi çıxış edərək öz ölkəsində, eləcə də başqa ölkələrdə ictimai zülmdən əziyyət çəkən xalqların mübarizəsinə milli və beynəlmiləlçi mövqedən yanaşmışdır. Şair-publisistin yaradıcılığında vətən qardaşlarının sosial, iqtisadi, siyasi və mənəvi inkişafına hesablanmış sənət örnəkləri üstünlük təşkil edir. Qeyd-şərtsiz, Ə.Qəmküsar öz ölkəsinin azad olması, müstəqil yaşaması, müstəqil siyasət yürütməsi, yeni nəsillərin yüksək ideya-siyasi tərbiyə ruhunda formalaşdırılması naminə mübarizə aparmışdır. Fədakar mollanəsrəddinçinin bir çox

---

[16] Kazımov, N.M. Məktəb pedaqogikası / N.Kazımov. – Bakı: Çaşıoğlu, – 2002. – s. 332-333

əsərləri bu gün də məktəblilərin, gənclərin ideya-siyasi səviyyəsini yüksəldəcək sənət örnəkləridir.

İkinci fəslin **"2.4. Əliqulu Qəmküsarın yaradıcılığında estetik tərbiyə məsələləri və pedaqoji fikir tarixi üçün onların əhəmiyyəti"** paraqrafında göstərilir ki, Əliqulu Qəmküsarın bədii-publisistik yaradıcılığında estetik tərbiyəyə dair kifayət qədər fikirlər, ideyalar vardır. Başqa sözlə, şairin əsərlərində tərbiyənin tərkib hissələrindən biri olan estetik tərbiyə məsələləri geniş yer tutur.

Ümumiyyətlə, dəyərli sənət nümunələri yetişən nəslin estetik tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Ə.Qəmküsarın ömür və sənət yolunu estetik tərbiyə baxımından 2 istiqamət üzrə dəyərləndirmək mümkündür:

1. Ə.Qəmküsarın bədii yaradıcılığında estetik tərbiyənin qoyuluşu.
2. Mollanəsrəddinçi ziyalının teatr sahəsindəki fəaliyyətinin yeni nəsillərin estetik tərbiyəsində rolu.

Ə.Qəmküsar qələmindən çıxmış əsərlərin estetik tutumu genişdir. Burada nəinki insanların bədii zövqlərinin formalaşdırılması məsələləri mühüm yer tutur, hətta cəmiyyət üzvlərinin estetik-bədii zövqlərindəki xoşagəlməz hərəkətlər, əxlaqa zidd məqamlar tənqid olunur, şair cəmiyyət üzvlərinin estetikasında özünü göstərən mənfi keyfiyyətlərin aradan qaldırılmasını vacib və gərəkli sayılır.

Ə.Qəmküsar belə bir mövqedən çıxış etmişdir ki, cəmiyyətin hər bir üzvü yüksək estetik mədəniyyətə malik olmalıdır. Məlum olduğu kimi, insanda estetik zövqün səviyyəcə yüksəlməsində musiqi mühüm əhəmiyyət kəsb edir. Bunun müqabilində yalançı din nümayəndələri musiqi ilə məşqul olanları kafir adlandırmış, eyni zamanda insanların təfəkkürünü dini nəğmələrlə məşğul etmişlər. Ə.Qəmküsar şeirlərinin bir çoxunda vaizlərin, mərsiyəxanların, mollaların oxuduqları dini nəğmələrin gərəksizliyini göstərmiş, yeni nəsillərin estetik tərbiyəsi üçün zərəli olan, hətta onların əxlaqının saflaşmasına əngəl törədən belə nəğmələrin səsləndirilməsinə qarşı çıxmışdır.

Ə.Qəmküsar yaradıcılığının estetik baxımından təhlilinin

ikinci tərəfində onun səhnə fəaliyyəti, teatr yaradıcılığı və aktyorluq məharəti durur. Maraqlıdır ki, şair-publisistin səhnə, teatr, aktyorluq sahəsindəki uğurları məqsəd və məram baxımından "Molla Nəsrəddin"dəki uğurları ilə üst-üstə düşür, birbaşa Azərbaycan maarifçilik hərəkatından qaynaqlanır. Bildiyimiz kimi, fədakar ziyalı Ə.Qəmküsar əqidə dostu C.Məmmədquluzadənin "Ölülər" əsərində İskəndər rolunun ifası ilə əlaqədar ona çatacaq maddi vəsaiti "Molla Nəsrəddin" jurnalının nəşrinə sərf etmişdir. Eləcə də "Ölülər" tragikomediyasında Ə.Qəmküsarın yaratdığı Şeyx Nəsrullah obrazı pedaqoji fikir tariximizin estetik tərbiyə bölməsi üçün bənzərsiz faktlardan hesab olunur. Ə.Qəmküsar səhnədə Şeyx Nəsrullahın fərdi xüsusiyyətlərini açmaqla tamaşaçıların estetik tərbiyəsinin formalaşmasına nail olan ilk azərbaycanlı aktyordur.

Ümumiyyətlə, "Ölülər"in sahnə taleyi, Ə.Qəmküsarın canlandırdığı Şeyx Nəsrullah rolu haqqında teatr tariximizdə qiymətli faktlar mövcuddur və həmin faktlar yeni nəsillərin estetik tərbiyəsi üçün nə qədər dəyərlidirsə, estetik tərbiyənin kütləviliyi üçün də bir o qədər əhəmiyyətlidir.

Məlumdur ki, 1916-cı ildə Mirzə Cəlil və Ə.Qəmküsar "Ölülər"in tamaşaya qoyulması ilə əlaqədar bir çox şəhərlərdə, o cümlədən İrəvan, Gəncə, Şuşa şəhərlərində olmuşlar. Ə.Qəmküsar Şuşada Xurşudbanu Natəvanın qızı Xanbikə xanıma məxsus evdə məktəblilər üçün də "Ölülər"in göstərilməsini təşkil etmişdir. Həmin tamaşa o dövrdə məktəblilərin estetik tərbiyəsinə hesablanmış ilk hadisələrdən biridir.

Ə.Qəmküsarın, ümumiyyətlə, sənət tariximizdə yer tutması inkaredilməz faktdır. O, "Molla Nəsrədddin"in ikinci redaktoru vəzifəsini icra edərkən karikaturaçı rəssamlara ideyalar vermiş, oynadığı tamaşalarda dekorasiyaların daha mükəmməl tərtibinə çalışmış, gənc ifaçılara Azərbaycan muğamının sirlərini öyrətmiş, qarmon alətində xalq musiqisi nümunələrini özünəməxsus məharətlə ifa etmişdir. Bütün bunlar yeni nəsillərin estetik tərbiyəsi üçün çox dəyərli göstəricilərdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın yekunları aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. İstedadlı şair, talantlı jurnalist, səriştəli publisist, ifaçı, teatr xadimi, aktyor, nəhayət, ictimai-siyasi xadim olan Əliqulu Qəmküsarın yaradıcılığı Azərbaycanın ədəbi-bədii mühiti üçün dəyərli olduğu kimi, Azərbaycan pedaqoji fikir tarixini zənginləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

2. Əliqulu Qəmküsarın həyatı, yaradıcılığı və maarifçilik fəaliyyəti pedaqoji fikir tariximiz üçün bir neçə cəhətdən mühüm əhəmiyyət kəsb etməkdədir. Birincisi, ədib XX əsrin ilk onilliklərində avam camaatın maariflənməsinə ciddi təsir göstərən əsərlər - şeirlər, satiralar, dəyənəklər və digər bədii-publisistik yaradıcılıq nümunələri yazmışdır. İkinicisi, ədib xalqının maariflənməsi uğrunda apardığı mübarizədə həyatından keçmişdir.

3. Əliqulu Qəmküsarın "Molla Nəsrəddin" və digər mətbuat orqanlarında nəşr olunmuş satirik şeirləri, məqalələri, felyetonları Azərbaycan ədəbiyyatı və publisistikasının dəyərli örnəkləri olmaqla yanaşı, onların Azərbaycan pedaqoji fikir tariximizi zənginləşdirmək baxımından bənzərsiz təlim-tərbiyə örnəkləri olması da qeyd edilməlidir.

4. Əliqulu Qəmküsarın mənzum hekayələrində və dəyənəklərində xalqın maariflənməsinə dair fikirləri bütün dövrlərdə yetişən nəslin şəxsiyyətyönümlülük səviyyəsini yüksəltmək üçün əsl tərbiyə örnəkləri kimi dəyərləndirilməlidir.

5. Müasirlərinin Əliqulu Qəmküsar haqqında dedikləri onun bir mütəfəkkir, bir tərbiyəçi, bir maarifçi kimi pedaqoji fikir tarixində layiqli yer almasına təsir göstərməklə yanaşı, yeni insan tərbiyəsi üçün pedaqoji prosesin iştirakçılarının əlində tərbiyə nümunəsinə çevriləcəkdir.

6. Əliqulu Qəmküsarın yaradıcılığında mövcud olan tərbiyəvi fikirlər o zamankı avam camaatın qəflət yuxusundan ayılmasına, maariflənməsinə köməklik göstərən tərbiyə örnəkləri kimi pedaqoji fikir tarixində yer tutmalıdır.

7. Əliqulu Qəmküsarın yaradıcılığında didaktik mahiyyət daşıyan örnəklər müasir dövrdə yetişən nəslin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi baxımından elmi, pedaqoji, metodik nümunələrdir.

8. Əliqulu Qəmküsar yaradıcılığı XX əsrin əvvəllərində insanların əxlaqi cəhətdən inkişaf etməsinə təsir göstərməklə yanaşı, çağdaş zamanımızda da cəmiyyət üzvlərinin əxlaqının saflaşdırılmasını təmin edən tərbiyə örnəkləri kimi mühüm dəyərə malikdir.

9. Əliqulu Qəmküsarın yaradıcılığında mənəviyyat məsələlərindən bəhs edən əsərlər öz dövründə gənclər üçün tərbiyə örnəkləri olmaqla yanaşı, insanların zülmə qarşı mübarizlik səviyyəsinin yüksəldilməsinə, siyasi cəhətdən formalaşmasına kömək edən örnəklər hesab olunur. Həmin örnəklər eyni zamanda pedaqoji fikir tariximizi də zənginləşdirir.

10. Ə.Qəmküsarın yaradıcılığında estetik tərbiyə ilə bağlı fikirlər bütün dövrlərdə yetişən nəslin bədii zövqünün modernləşməsinə, keyfiyyətcə yüksəlməsinə xidmət etmək gücündədir.

Ə.Qəmküsarın pedaqoji ideyaları ilə bağlı bir sıra təkliflərin verilməsini də məqsədəuyğun hesab edirik. Birinci təklifimiz, ondan ibarətdir ki, Ə.Qəmküsar adına muzey yaradılmalı, fəaliyyət göstərməlidir. Hesab edirik ki, belə bir muzey gənclərin vətənpərvərlik tərbiyəsində əhəmiyyətli dərəcədə rol oynaya bilər.

İkincisi, Ə.Qəmküsarın yaradıcılığını özündə əks etdirən trafaretlərin hazırlanması və onlardan təlim-tərbiyə müəssisələrinin interyerində istifadə edilməsi məqsədəuyğundur.

Üçüncüsü, Ə.Qəmküsarın mollanəsrəddinçi nəzmin böyük ustadı Sabir sayağı yazdığı şeirlər toplusunun “Naxçıvanın Hophopu” adı altında nəşri və məktəblilərə çatdırılması pedaqoji cəhətdən mühüm əhəmiyyət kəsb edərdi.

Dördüncüsü, Ə.Qəmküsarın tərbiyəvi fikirlərinin pedaqogika dərsliklərində yer alması və bu zaman həmin fikirlərin tərbiyənin tərkib hissələri üzrə bölüşdürülməsi pedaqogikanın tərbiyəşünaslıq bölməsinin yeniləşdirilməsi baxımından zəruri və gərəklidir.

Nəhayət, gələcəkdə nəşr olunacaq pedaqogika tarixinə dair dərsliklərdə, dərs vəsaitlərində Əliqulu Qəmküsara ayrıca paraqraf ayrılması pedaqoji fikir tariximizin zənginləşdirilməsi baxımında faydalı olar.

**Tədqiqat işinin məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Mollanəsrəddinçilər irsinə Heydər Əliyev məhəbbəti / "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusuna həsr edilmiş Respublika konfransının materialları (05 may 2015). Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan: Məktəb, 2015, s. 71-73

2. Maarif fədaisi Əliqulu Qəmküsar / Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar. Beynəlxalq elmi konfransın materialları (5-6 iyun 2015). – Bakı: – Mütərcim, – 2015, – s. 348-349

3. Ə.Qəmküsarın yaradıcılığında maarifçilik məsələləri // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2016. – № 4 (78), – s. 25-27

4. Əliqulu Qəmküsar yaradıcılığında estetik tərbiyə məsələləri və pedaqoji fikir tarixi üçün onların əhəmiyyəti // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, – 2017, – № 4, – s. 99-102

5. Görkəmli maarifçi Əliqulu Qəmküsarın həyat və yardıcılığı haqqında aparılan tədqiqatların pedaqoji fikir tarixində yeri // – Bakı: Pedaqogika. Elmi-nəzəri-metodik jurnal, – 2018, – № 1, – s. 42-49

6. Əliqulu Qəmküsarın yaradıcılığında əxlaq tərbiyəsi məsələləri / "Təhsil kurikulumları: praktik tətbiqlər" mövzusunda keçrilən Respublika konfransının materialları (24 aprel 2018). Naxçıvan: Məktəb, 2018, s. 20-21.

7. Место, роль и значение образовательной деятельности Аликулу Гемкусара в истории педагогической мысли // Bakı: Pedaqogika. Elmi-nəzəri-metodik jurnal, – 2018, – № 3, – s. 114-127

8. Высказывания современников об Алигулу Гамкюсаре и их значение в истории педагогической мысли / – Aktualnıe problemı. Qumanitarnış i estestvennıx nauk. –Москва: – 2018, –№ 08, – с. 89-95.

9. Əliqulu Qəmküsarın yaradıcılığında ideya-siyasi tərbiyə məsələləri və pedaqoji fikir tarixi üçün onların əhəmiyyəti // –

Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2018. – № 1 (90), – s. 28-32

10. Əliqulu Qəmküsar yaradıcılığinda əxlaq tərbiyəsi örnəkləri bütün dövrlər üçün aktualdır // Milli irs. Ədəbi-bədii, elmi-nəzəri jurnal. – Bakı: –Azərbaycan nəşriyyatı, –2018 (021), s. 35-40.

11. Əliqulu Qəmküsarın yaradıcılığında pedaqoji motivlər // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, – 2019, – № 3 (57), – s. 60-68

12. Aligulu Gamkusar's life, creativity and enlightement visions(Əliqulu Qəmküsarın həyatı, yaradıcılıgı və maarifçilik görüşləri) / Advances in science and technology. XXVII mejdunarodnaya nauçno-praktiçeskaya konferençiya (15 marta 2020). Sbornik statey. Moskva: 2020, s.108-112

13. Voprosı ideyno-politiçeskoqo vospitaniya v tvorçestve Alikulu Qemkusara i ix znaçenie dlya istorii pedaqoqiçeskoy mısli // Pereyaslav- Xmelniçkiy: – 2019, – Aktualnıe nauçnıe issedovaniya v sovremennom mire. – Vıpusk 5 (49), – çast 4, –may 2019 q. – s. 60-65

14. Görkəmli maarifçi Əliqulu Qəmküsarın mənzum hekayələr və dəyənəklərindəki tərbiyə məsələlərinin pedaqoji fikir tarixində əhəmiyyəti / Elmi iş. Beynəlxalq elmi jurnal. Humanitar və ictimai elmlər üzrə I Beynəlxalq elmi konfransın materialları (24 iyul 2020-ci il). Bakı: –2020, – s.304-308

Dissertasiyanın müdafiəsi _24_ sentyabr 2021-ci il tarixində saat 11$^{00-}$ da Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının rəsmi internet saytlarında yerləşdirilmişdir.

Avtoreferat _20_ avqust 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

**Çapa imzalanıb: 19.08.2021**
**Kağızın formatı: 60×84**
**Həcm: (işarə sayı)** 43 890
**Tiraj: 100**